# Mindən bir gecə əskik



Nigar Pirimova
*teatrşünas*

Bəzən özümü çox qınayıram ki, vaxt tapıb bütün teatrlara getmirəm. Düzdür, tamaşalar da həmişə eyni səviyyədə olmur. Bəlkə də bəzilərindən usandığımdan, bəzilərindən yoruldğumdan, ona sərf etdiyim vaxtım hədər getdiyini sonradan biləcəm? Ancaq getməyincə də bunu bilmək olmur. Hələ söhbət Musiqili Teatrdan gedirsə. Nə qədər olmaya bu teatr o birilərindən mənə bir addım daha yaxın olmalıdır. Axı teatrşünasdan öncə bir musiqiçiyəm. Əlqərəz, məramım təbii ki, özümdən danışmaq deyil. Uzun sözün qısası, bu dəfəki yazım "Min bir gecə" nağıllarından birinin əsasında Gəncə Dövlət Dram Teatrının baş rejissoru İradə Gözəlovanın Musiqili Teatrda hazırladığı "999-cu gecə" adlı musiqili tamaşa haqqındadır. Hər şeydən öncə onu vurğulamaq istəyirəm ki, tamaşada Fikrət Əmirovun "Min bir gecə" baletinin musiqilərindən istifadə olunub və bütün ifalar da canlı idi.

Maraqlıdır niyə "999-cu gecə"? İş ondadır ki, rejissor, məşhur "Min bir gecə" nağıllarından məhz 999-cu gecə söylənilən nağılı səhnələşdirib. Hələ tamaşa başlamazdan xeyli öncə zala girdiyimdə səhnə maraqlı tərtibatı ilə diqqətimi çəkdi (quruluşçu rəssam Nabat Səmədova). Səhnənin sağ küncündə "ayaqqabı təmiri" (yəni pinəçi məkanı) və boş səhnədə tam ortada böyük bir Şərq miniatürü üslubunda işlənmiş rəsm asılmışdı ki, bu da məndə hətta bir anlıq "Leyli və Məcnun" təəssüratı oyatdı. Düşündüm əcaba sevgi əhvalatımı, yoxsa qəribə bir gecə nağılımı? Bircə qalırdı tamaşanı gözləmək.

Əvvəla mətləbə tam keçməzdən öncə bu ecazkar gecədə nədən bəhs olunduğundan sizləri də hali etmək gərək. Söhbət bu ki, Maruf (Nicat Əlili, Səmədzadə Xasiyev) və Fatma (Gültac Əlili, Gülnarə Abdullayeva) evlidilər, çox kasıbdılar, Maruf pinəçi, övrəti isə varlıların ayaqlarını yumaqla para qazanır (tamaşa boyu yuduğu ayaqların sahibləri görünmür, sadəcə dizdən aşağı ayaqlar var). Həyatından narazı Fatma hər günün axırı Marufu lənətləyir, ona gəldiyi günə qarğış edir. Təngə gələn Maruf Allahdan imdad diləyib onu ömürlük buradan uzaqlaşdırmağını istəyir. Və ... duaları qəbul olunur, bir bəni-adəm onu bir anın içində şah sarayına gətirir. Hərçənd bu şah sarayı Marufun yaşadığı şəhərdən bir neçə illik məsafədə yerləşir. Hər kəs Marufun tacir olduğuna inansa da, hiyləgər ilan-vəzir buna inanmır və Padşahın (Novruz Əliyev, Məhərrəm Qurbanov) qızı Reyhanın ona ərə verilməsinə qarşı çıxır. Sonda həqiqətin üstü açılır, lakin Reyhanla (Mehriban Zalıyeva) Maruf bir-birilərini sevirlər və bu sevgi İlahidən gəldiyinə görə sehirli üzüyü



belə kim barmağına taxır taxsın, Cinonu kim çağırır çağırsın onları ayıra bilmirlər. Hər şey sevgililərin qovuşması ilə bitir. Fatma isə tənha qalsa da taleyi ilə barışır. Yəni bütün vaxtı "ifritə Fatma" deyilsə də, sonda qeybdən səs onun da Tanrının sevimli bəndəsi olduğunu yadına salır.

Tamaşanın tərtibatı iki mərtəbəli qurulub, iki təbəqəni simvolizə edir. Yuxarı mərtəbə şah sarayı, varlı, ehtiyacsız təbəqə, aşağı mərtəbə pinəçi evi, kasıb, ehtiyac içində güzəran keçirənlər. Yuxarısı cənnət, aşağısı cəhənnəm. Kiminə pul cənnət kimi gəlir, çünki pulla hər şeyi əldə edə bilərsən, parasızlıq isə çox zaman insana cəhənnəm kimidir - ehtiyacın ödənməsi puldur, xəstənin sağalması puldur, hörmət puldur, yemək, yaşamaq puldur... Ona görə tamaşa boyu arzuları çin edən Cino (Elçin İmanov) kimi cəhənnəmə vasil edirdisə ikinci mərtəbədən birinciyə açılan balaca keçid pəncərəsini açıb aşağı atırdı. Yəni aşağı mərtəbə həm də cəhənnəmi bildirirdi. Sən demə cəhənnəmdən cənnətə keçmək üçün cəmi bir addım lazım imiş.



Tamaşanın musiqilərinin çoxu Fikrət Əmirovun "Min bir gecə" baletindən olsa da, bəzi məqamlarda müasir musiqi nömrələri tamaşanı daha dinamik edirdi. Xüsusən də Cinonun gəlişindən sonra. Onun gəlişi ilə sanki bayaqdan əski zamanları əks etdirən tamaşaya bir müasirlik qatıldı. Lap nağıllardakı kimi -butulkadan çıxan cin, yaxud sehrli üzüklər kimi. Elə bu da bir nağıl tamaşasıydı əslində. Ancaq gerçəkliyi özündə ehtiva edən tamaşa. Cinonun tamaşada pula, yaxud sonda İlahi sevgiyə aid oxuduğu meyxanaları da gerçəkliyin bir hissəsi idi. Rejissorun gətirdiyi gerçəklik. Pulun insanı padişah edib, kasıbınsa ehtiyacdan nələrə əl atacağı dünyanın gerçəkliyi. Lakin sonda bir ideya xüsusi qeyd olunurdu: puldan, vardan, vəzifədən - hər şeydən üstün olan haqqı nahaqqa verməyən, ülvi sevgini himayə edən Tanrıdır. Canı verən də, alan da yalnız Odur. Kasıbı tacir, padşahı dilənçi edən Odur. İlahiyə olan sevgi isə nə alınar, nə də satılar!







Çox tamaşalar olur ki, komediya janrında olsa da heç gülüş doğurmur. Ancaq bu "999-cu gecə"nin sehri səni nə qədər istəyirsən güldürürdü. Bəzi aktyorların oyunlarını ayrıca qeyd etmək istərdim. Hələ tələbə olarkən Stanislavski sistemini keçəndə öyrənmişdim ki, ustad öz tələbələrinə ilk tapşırıqları verərəkən heyvanları yamsılamağı öyrədir və qeyd edirmiş ki, ən çətini heyvanları canlandırmaqdır. Bəli, "999-cu gecə"də Tutuquşu obrazını (Elməddin Dadaşov) və İlan-vəziri (Hüseyn Əlili, bu rolun digər ifaçısı Ruslan Mürsəlovdur) başqa cür təsəvvürümdə canlandıra bilmirəm. Bunun üçün zəhmətlə, məşqlə yanaşı ən əsası müşahidədir. Həqiqətən baxdıqda nə dərəcədə bənzərlik olduğunu sezirdin. Tutunun məxsusi hərəkətlərini, danışığını, ilanın qıvrılaraq o yan bu yana fırlanmağını xırda cizgilərlə hər iki aktyor canlandıra bilmişdi. Və onların tamaşa boyu özünəməxsus ədaları, sözləri dəfələrlə zalda gülüşə səbəb olurdu. Yaxud Eşikağasının (Əliməmməd Novruzov) şahın qızı Reyhanı (Mehriban Zalıyeva) hər dəfə avazla çağırmasını sanki seyrçilər gözləyirdilər. Ümumiyyətlə, tamaşa boyu atmacalı sözlər, qeyri-adi hərəkətlərin nəyə eyham olunduğunu zalda səslənən alqışlardan sezmək olurdu. Aktyorların istər vokal ifası, istər oyun zamanı tamaşaçı salonuna vaxtaşırı enmələri seyrçini də hadisələrin ağuşuna aparır, onu da bu gecənin bir hissəsi olmağa vadar edirdi. Tamaşa salona gələn seyrçi ilə sanki danışırdı, onu maraqlandırırdı, bitərəf qalmağa imkan vermirdi, diqqəti yayındıracaq bir hadisə olan kimi anında onu yenə dartıb aparırdı 999-cu gecəyə. Hətta Cinonun gəlişi elə hazırlanmışdı ki, seyrçinin şaşqınlığı bir neçə anlıq üzlərindən getmədi. Şah dövründən, kasıb ailədən danışıldığı halda müasir kostyumlu, əlində mobil telefon bir şəxs tamaşaçı zalından yüksək səslə tamaşanı saxladı, nəzarətçilər belə onun tamaşanın gedişinə mane olduğunu xəbərdar etsələr də o, yüngül qaçışla səhnəyə qalxdı və sonradan məlum oldu ki, bu da tamaşanın bir hissəsi imiş. Yəni "ay seyrçi bu bir zarafatdır, tamaşa bir oyundur, oyuna qapılıb gerçək sanma".

Bir sözlə, bütün aktyor heyətindən musiqilərəcən (quruluşçu dirijor Fəxrəddin Atayev), rəqqas qızlardan (quruluşçu baletmeysterlər Zakir Ağayev, Yelena Ağayeva) geyimlərəcən, rəssam işindən dekoracan, səhnənin aşağı və yuxarılarında dayanan xor ifaçılarına (xormeyster Vaqif Məstanov) qədər hər şey bir-birini səliqəli və məntiqli şəkildə əvəzləyirdi. Seçmə tamaşalar olur ki, çöldə zamanın keçdiyini zalda hiss etməyəsən və "bir daha gələrdim" deyəsən. Bu gecə o gecə oldu, bu gece "999-cu gecə" oldu, bu gecə "Min bir gecə"dən bir gecə oldu...